***❒ Bakıdan ölkəmizin cənub bölgəsinə doğru uzanan yolun 200-cü kilometrindən sonra gələn Cəlilabad ərazisində bu rayonun bəzi gözəllik örnəkləri boy göstərir. Yolçular sağa burulub Cəlilabad şəhərinə daxil olunca daha çox gözoxşayan mənzərələrlə rastlaşırlar. Yeni əsrin əvvəllərindən Cəlilabad sürətlə inkişaf edib, daha da gözəlləşib.***

# Cəlilabad: Yollar zirvələrə aparır



Rayona növbəti ezamiyyətimdə həmsöhbət olduğum hər kəs vurğuladı ki, Cəlilabadda quruculuq səyləri ilbəil gözəl bəhrələr verir. Elə rayon icra hakimiyyətinin başçısı Namiq Zeynalov da yarımilin yekunlarına dair hesabat məruzəsində inkişaf meyllərinin başlıca fəaliyyət istiqaməti olması fikrini konkret faktlarla əsaslandırıb. O deyib ki, iqtisadiyyat durmadan möhkəmləndirilir, sosialyönümlü layihələr həyata keçirilir, əhalinin həyat şəraiti daha da yaxşılaşır və işsizliyin aradan qaldırılması üçün əməli addımlar atılır.

İlin əvvəlindən Azərbaycan Prezidentinin sərəncamına əsasən Cəlilabad-Yardımlı avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı "Azəravtoyol" ASC tərəfindən aparılan yenidənqurma işləri geniş vüsət alıb və son mərhələsinə daxil olub. Avtomobil yolunun ümumi uzunluğu 72 kilometrdir, bunun 51 kilometri Cəlilabad rayonu, 21 kilometri isə Yardımlı rayonu ərazisindən keçir. İki rayon arasında yeni bir bağlantı yaradacaq yolun yenidən qurulması ilə 59 yaşayış məntəqəsinin 60 mindən çox əhalisinin gediş-gəlişi xeyli asanlaşacaq, yük daşınması daha da sərfəli olacaq.

Tikintisi başa çatmaqda olan 35 kilometrlik Maşlıq-Muğan-Kazımabad-Göytəpə-Privolnoye-Ağdaş-Soyuqbulaq avtomobil yolu da cari ilin mühüm layihələrindəndir. Eyni zamanda rayon mərkəzinin Mehdi Hüseyn, Azərtürk, Fərid Əhmədov, Qüdrət İsmayılov və Nizami küçələrinə asfalt vurulub. Hazırda 9,4 kilometrlik Cəlilabad-Uzuntəpə avtomobil yolunda, Cavadxan, Xətai və Məlik Quliyev küçələrində yenidənqurma işləri davam etdirilir, köhnə tikililər sökülür, yeni işıqlandırma sistemi qurulur, piyada səkiləri salınır. Həmçinin, Cəlilabad şəhər 8 saylı körpələr evi-uşaq bağçası üçün 100 yerlik yeni bina tikilir, Heydər Əliyev seyrəngahı, 2 və 5 saylı körpələr evi-uşaq bağçaları isə əsaslı təmir olunur. Cəlilabad şəhərində təmir olunması nəzərdə tutulan çoxmənzilli binaların 11-nin dam örtüyü dəyişdirilib.



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 7 il öncə yaradılmış “Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq” - İDEA İctimai Birliyinin layihəsi çərçivəsində birinci yarımildə Cəlilabadda təmiz ekoloji mühitin yaradılması və yeni yaşıllıqların salınması məqsədilə rayonun landşaftına uyğun gələn 22 mindən çox bəzək ağacı və gül kolları əkilib.

Rayonun Xəlilabad kəndinə təbii qazın verilməsi münasibətilə keçirilmiş mərasimdə Namiq Zeynalov deyib ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra edilir, təkcə son iki ildə “Azəriqaz” İstehsalat Birliyi tərəfindən Cəlilabadın 48 kəndi təbii qazla təmin olunub, mavi yanacaq hər bir mənzilə sevinc və xeyir-bərəkət gətirib.

Cəlilabadın torpaqları bərəkətli, adamları zəhmətkeşdir. Rayon iqtisadiyyatının əsasını təşkil edən aqrar bölmədə uğurlu nəticələr qazanılır. Bu ilin əlverişsiz hava şəraitinə baxmayaraq, xeyli buğda, arpa, vələmir, noxud, mərci, kartof və tərəvəz istehsal olunub. Hazırda məhsul yığımı davam etdirilir. Üzümçülər isə 1331 hektar sahədə yetişdirdikləri bol və keyfiyyətli məhsulu artıq bazara çıxarmağa başlayıblar. Ölkə başçısının tapşırığına əsasən pambıq əkilməsindən ötrü 505 hektar torpaq müəyyənləşdirilib, əkin vaxtında aparılıb və sahələrin suvarılması üçün zəruri işlər görülüb. Həyata keçirilən tədbirlər bu il tarlalardan daha çox “ağ qızıl” toplanacağına zəmanət verir. Barama becərilməsi məqsədilə Çin Xalq Respublikasından gətirilmiş 5 min, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilmiş 10 min ədəd tut tingi əkilib. Cari ildə kümçülər tərəfindən 1172 kiloqram yaş barama istehsal edilib və “Şəki-İpək” ASC-yə təhvil verilib. Əkinçiliyin strukturunda aparılan dəyişikliklər hesabına rayona daha çox su limiti ayrılıb, 26,9 min hektar əkin sahəsi suvarılıb. Su ötürücülüyünü artırmaq üçün 186 kubmetr kanal lildən təmizlənib.

Kənd təsərrüfatının inkişafı və tikinti-abadlıq işlərinin genişləndirilməsi əhalinin məşğulluğuna da müsbət təsir göstərir. Təkcə Cəlilabadın deyil, qonşu rayonların da əməkqabiliyyətli sakinləri kartof, çiyələk, noxud, mərci, sarımsaq və digər bitkiçilik məhsullarının becərilməsinə cəlb edilirlər.

Cəlilabadda öyrəndim ki, ölkə miqyasında ərzaq bolluğu naminə heyvandarlığın inkişafına göstərilən qayğı nəticəsində rayon üzrə qaramalın sayı 99121, davarların sayı 122978, quşların sayı isə 879277 başa çatdırılıb. Heyvandarlar ilk yarımildə 8,2 min ton ət, 38,1 min ton süd və 11,3 milyon ədəd yumurta istehsal ediblər. Həmçinin lizinq yolu ilə xaricdən 629 baş cins düyə gətirilib, 2051 baş heyvan süni mayalandırılıb və 1213 baş sağlam buzov alınıb. “Günəşli” aqroparkının fəaliyyətinin genişləndirilməsi davam etdirilib,



ilkin mərhələdə “Aqrolizinq” ASC-nin xəttilə xaricdən 460 baş cins inək gətirilib, 40 elektron və 20 mexaniki sağım aparatı quraşdırılıb. Hazırda isə yeni ferma binalarının, gündəlik emal gücü 20 ton olan süd zavodunun və illik gücü 1000 ton olan ət kəsimi zavodunun tikintisi davam etdirilir. Aqroparkda peyinqurutma və paketləmə işlərini həyata keçirmək üçün hər birinin gündəlik istehsal gücü 50 ton olan 2 avadanlıq quraşdırılıb.

Nəhayət, qeyd etmək yerinə düşər ki, Cəlilabadda insanların mənəvi dünyasının zənginləşməsinə, ədəbi zövqünün inkişafına da ciddi fikir verilir. May ayında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş kitab bayramı rayonda böyük təntənəylə keçirilib. Tədbirdə respublikanın aparıcı nəşriyyatlarında işıq üzü görən müxtəlif kitablar sərgilənib. Dövlət səviyyəsində latın qrafikalı kitabların nəşri istiqamətində həyata keçirilən tədbirlər diqqətə çatdırılıb.



Ulu öndərin örnək həyat yoluna həsr olunan nəşrlər, tariximizi özündə əks etdirən monoqrafiyalar, uşaq və gənclər üçün nəfis ədəbi nümunələr böyük marağa səbəb olub. Kitab bayramı müxtəlif yaş, düşüncə tərzi və maraq dairələri olan insanları birləşdirib. Sonda rayonun bədii kollektivlərinin maraqlı konsert proqramı təqdim edilib.

Buradakı müasir memarlıq nümunələrində də qeyri-adilik diqqət çəkir. Məsələn, binalardan biri açıq kitab formasında, biri isə şahmat oyunundakı top fiquru şəklindədir. Cəlilabadlı qələm sahiblərinin kitablarının çapı, onların yubileylərinin keçirilməsi də yaddaqalan olur. Məktəblərdə, kitabxanalarda, həmçinin Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialında tez-tez maraqlı ədəbi-bədii tədbirlər təşkil olunur. Elə bir neçə ay əvvəl rayon miqyasında şair Ədalət Salmanın 60 illik yubileyi qeyd edilib, az sonra isə onun ərsəyə gətirdiyi “Sözün işığı” ədəbi-bədii jurnalının 15 yaşı münasibətilə yubiley nömrəsi çıxıb.

Cəlilabad böyük ədib Cəlil Məmmədquluzadənin adını daşıyır. Bu şəhərdə Mirzə Cəlilin abidəsi də var. Ötən əsrin əvvəllərində olmazın əzab-əziyyət bahasına Tiflisdə “Molla Nəsrəddin” jurnalını nəşr edən, millətin ayılmasına, maariflənməsinə çalışan Mirzə Cəlilin mənəvi övladları bu gün, üstündən yüz il ötəndən sonra cənub bölgəmizdə jurnal çapını gerçəkləşdirirlər. Lənkəranda “Söz”, Cəlilabadda isə “Sözün işığı” jurnalları bölgənin ədəbi qüvvələrini birləşdirən, onlara sənət sevincləri bəxş edən, oxucuların bədii zövqlərini yönləndirən nəşrlər kimi dəyər qazanıb. Bu jurnallar ucqarlarda qalıb nəzər-diqqətdən uzaq olan çox istedad bulağının gözünü açıb əzəl-əzəl şirin zümzüməsinin, sonra isə gur səsinin dağdan-arana, arandan-Turana yayılmasına bir vasilədir.

...“Sözün işığı” jurnalının redaksiyasında onun baş redaktoru, şair Ədalət Salman və yazıçı Meyxoş Abdullahla çay süfrəsi arxasında maraqlı söhbətlərimiz oldu. Cəlilabaddan xoş duyğularla ayrılanda düşündüm ki, burada bir an belə darıxmadım. Çünki hamı nikbin ruhdadır, hər kəsin sabaha inamı böyükdür.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***